# İdmançılarımız medalların sayını artırırlar
















**Sentyabrın 29-da III MDB Oyunlarının dördüncü günündə 8 idman növü üzrə medallar uğrunda mübarizə başlayıb. Qəbələ Olimpiya Kompleksində stolüstü tennisdə həlledici görüşlər keçirilib.**

Qəbələ şəhər stadionunda isə futbol üzrə 16 yaşadək (U-16) komandalar arasında növbəti görüşlər olub. B qrupunda Belarus Özbəkistanla üz-üzə gəlib. A qrupunda Qırğızıstan Tacikistanla münasibətlərə aydınlıq gətirib.

Qəbələdə daha bir yarış - Atıcılıq Klubunda stend atıcılığı üzrə təsnifat və final görüşləri təşkil olunub.

Gəncə İdman Sarayında üzgüçülük yarışları davam edib. Həmçinin burada voleybol oyunlarına start verilib. A qrupunda Azərbaycan millisi Tacikistanla üz-üzə gəlib, B qrupunda isə Belarus və Qırğızıstan komandaları qarşılaşıb.

Göygöl Olimpiya Kompleksində sambo üzrə yarışlar start götürüb. 5 çəkidə Azərbaycan təmsilçiləri finala yüksəliblər. Bunlar Abdullətif Musayev (53 kq), Rüstəm Qasimzadə (58 kq), Nihad Rəhimov (64 kq), Əbubəkir Hüseynov (98 kq) və Rəsul Səmədlidir (+ 98 kq). 71 kq-da Mikayıl Amirov və 88 kq-da Xəzər Əmrahlı yarımfinalda uduzublar. Onlar bürünc medal üçün mübarizə aparacaqlar.

Yevlax Olimpiya İdman Kompleksində boks, Mingəçevir Kür Olimpiya Mərkəzində isə taekvondo yarışları başlayıb.

Dünən Azərbaycan üzgüçüləri III MDB Oyunlarında dörd medal qazanıblar. 200 metr məsafəyə "butterfly" üsulu ilə üzmədə Azərbaycan idmançısı Oqtay Hüseynov gümüş medal əldə edib. Rusiyalı Maksim Starovoytov qızıl, özbəkistanlı Javlonbek Qaniyev isə bürünc medala sahib çıxıblar.

Bundan başqa, qadınlar arasında 200 metr məsafəyə "butterfly" üsulu ilə üzmədə azərbaycanlı üzgüçülər Mehri Əbdürəhmanlı gümüş, Anastasiya Gnussina bürünc mükafat qazanıblar. Qızıl medala rusiyalı Anastasiya Çernışova sahiblənib.

Azərbaycanın daha bir üzgüçüsü III MDB Oyunlarında gümüş medal qazanıb - Süleyman İsmayılzadə 200 metr məsafəyə sərbəst üsulla üzmədə ikinci yeri tutub. Rusiyalı Boqdan Toropkin qızıl, onun həmyerlisi Matvey Nesterov bürünc medala sahib çıxıb.

Azərbaycanın stolüstü tennisçisi Onur Quluzadə III MDB Oyunlarında gümüş medal əldə edib. İdmançımız fərdi yarışın finalında rusiyalı Yevgeni Dosova məğlub olub. Azərbaycanın daha iki stolüstü tennisçisi Adil Əhmədzadə və Mərziyyə Nurmətova III MDB Oyunlarında həlledici qarşılaşmalarda rusiyalı rəqiblərinə uduzaraq gümüş medal qazanıblar.

Qəbələ Olimpiya Kompleksində III MDB Oyunları çərçivəsində keçirilən stolüstü tennis yarışları yekunlaşıb. Rusiya komandası bu idman növündə 10 medal (9 qızıl, 1 gümüş) qazanaraq birinci, 6 gümüş, 3 bürünc medal qazanan Azərbaycan idmançıları ikinci, 1 gümüş, 6 bürünc mükafatla Belarus üçüncü olub. Özbəkistan 1 gümüş, 6 bürünc medalla dördüncü, Qazaxıstan isə 3 bürünc medalla beşinci yeri tutub.

Sentyabrın 28-də isə III MDB Oyunları çərçivəsinə Qəbələ Atıcılıq Mərkəzində stend atıcılığı üzrə yarışda azərbaycanlı idmançılar Cavid Həsənov və Cəmilə Paşayeva üçüncü yeri tutaraq bürünc medala yiyələniblər.

Rusiyalı atıcılar İlya Kuşaqin və Yelizaveta Yevqrafova qızıl, qazaxıstanlı idmançılar Maksim Poşivalov və Lidiya Başarova gümüş medal qazanıblar.

Xatırladaq ki, III MDB Oyunları 28 sentyabr - 8 oktyabr 2025-ci il tarixlərində Azərbaycanın 7 şəhərində - Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə keçirilir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***
*Qəbələ-Gəncə*

Azərbaycan.- 2025.- 30 sentyabr (№ 209).- S.10.